# İşlə bağlı Qərar 2020-003-FB-UA

## İşin Xülasəsi

Nəzarət Şurası Facebook şirkətinin tərkibində alçaldıcı təhqiramiz ifadələrin olduğu və şirkətin Nifrət Dili ilə bağlı İcma Standartını pozan istifadəçi paylaşımının silinməsi ilə bağlı verdiyi qərarı dəstəkləyib.

### İşə dair məlumat

2020-ci ilin noyabr ayında istifadəçilərdən biri özünün Facebook hesabında Azərbaycanın Bakı şəhərindəki kilsələri təsvir edən tarixi fotoşəkillərin olduğu bir məzmun yerləşdirib. Məzmunla birgə rus dilində yerləşdirilmiş mətndə iddia olunurdu ki, Bakı şəhərini ermənilər salmış və bu mədəni irs, o cümlədən kilsələr dağıdılmışdır. İstifadəçi mətndə azərbaycanlılarla bağlı "тазики" ("taziklər") sözündən istifadə etmiş və iddia etmişdir ki, onlar köçərilərdir və ermənilərlə müqayisədə heç bir tarixə sahib deyillər.

İstifadəçi qeyd olunan bu paylaşıma heştəqlər yerləşdirmiş və azərbaycanlıların təcavüzü və vandalizminə son qoymağa çağırmışdır. Digər heştəqdə isə Arsaxın (ermənilər tərəfindən Dağlıq Qarabağa verilmiş ad) tanınması ilə bağlı çağırış edib ki, bu da Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin təməlində duran bir məsələdir. Bu paylaşıma 45 000-dən çox baxış olmuş və iki dövlət arasındakı münaqişə zamanı Facebook-da yerləşdirilmişdir.

### Əsas faktlar

Facebook şirkəti tərkibində təhqiramiz ifadələrin olduğu və onun Nifrət Dili ilə bağlı İcma Standartını pozan paylaşımı silmiş və iddia etmişdir ki, bu paylaşımda bir qrup insanı xarakterizə etmək üçün onların mühafizə olunan səciyyəvi xüsusiyyəti (milli mənsubiyyəti) ilə bağlı təhqiramiz ifadələrdən istifadə edilmişdir.

Paylaşımda azərbaycanlıları xarakterizə etmək üçün "тазики" ("taziklər") sözlərindən istifadə olunmuşdur. Bu termin rus dilində hərfi mənada "ləyən" kimi tərcümə olunsa da, bir söz oyunu olaraq rus dilində azərbaycanlılarla bağlı alçaldıcı ifadə olan və Facebook-un təhqiramiz ifadələrə dair daxili siyahısında olan "азики" ("aziklər") ifadəsi kimi da başa düşülə bilər. Nəzarət Şurası adından həyata keçirilmiş müstəqil linqvistik təhlildə təsdiq olunur ki, Facebook-da "тазики" ifadəsi milli mənsubiyyətə qarşı insan ləyaqətini alçaldan həqarətli bir ifadə kimi başa düşülür.

Bu terminin istifadə olunduğu kontekstdən aydın olur ki, burada məqsəd terminin aid

olduğu hədəf qrupunu alçaltmaq olmuşdur. Beləliklə, Şura bu paylaşımın Facebook-un İcma Standartlarını pozduğuna inanır.

Şura həmçinin müəyyən etmişdir ki, Facebook şirkətinin məzmunun silinməsi ilə bağlı qərarı onun korporativ dəyərlərinə uyğundur. Hərçənd Facebook-da "Söz azadlığı" ən vacib dəyər kimi qəbul edilsə də, şirkətin dəyərlərinə həmçinin "Təhlükəsizlik" və "Ləyaqət" kimi dəyərlər də daxildir.

2020-ci ilin sentyabr-noyabr ayları ərzində Dağlıq Qarabağın mübahisəli əraziləri uğrunda aparılan döyüşlər nəticəsində minlərlə insan həlak olmuş və bu məzmun atəşkəsdən bir az əvvəl yerləşdirilmişdir.

Təhqiramiz ifadənin insanın şərəf və ləyaqətini alçaltması və bu kimi təhqiramiz ifadələrin fiziki zorakılığa çevrilməsi təhlükəsi fonunda, Facebook şirkətinə insanların "Təhlükəsizliyi" və "Ləyaqəti" kimi dəyərlərin "Söz azadlığı"-dan üstün tutulmasına icazə verilmişdir.

Şura üzvlərinin böyük əksəriyyəti hesab etmişdir ki, bu paylaşımın silinməsi ifadə azadlığının məhdudlaşdırılmasına dair beynəlxalq insan hüquqları standartlarına uyğundur.

Şura hesab edir ki, azərbaycanlıları xarakterizə etmək üçün "тазики" sözündən istifadə edilməsi müəyyən etnik mənsubiyyətə məxsus insanlarla bağlı alçaldıcı ifadə kimi təsnifləşdiriləcəyi istifadəçilər üçün aydındır və bu paylaşımın çıxarılmasında Facebook legitim bir məqsəd güdüb.

Həmçinin Şura üzvlərinin əksəriyyəti Facebook tərəfindən bu paylaşımın silinməsini başqalarının hüquqlarının qorunması baxımından zəruri və münasib hesab edib. Şəxsiyyəti alçaldan təhqiramiz ifadələr ayrı-seçkiliyin olduğu və zorakı bir mühitin yaranmasına və nəticədə digər istifadəçilərin susdurulmasına səbəb ola bilər. Silahlı münaqişə zamanı insanların bərabərlik hüququ, şəxsi təhlükəsizlik və yaşamaq hüquqları ilə bağlı risklər xüsusi olaraq vurğulanır.

Şuranın böyük əksəriyyəti Facebook şirkətinin cavab tədbirinin bu risklərə uyğun olduğunu hesab etsə də, onların az bir hissəsi düşünür ki, Facebook-un bu qərarı beynəlxalq standartlara və paylaşıma uyğun deyil.  Onlar hesab edirlər ki, bu paylaşımın çıxarılmasının əvəzinə Facebook hər hansı digər icbari xarakterli tədbir görməli idi.

**Nəzarət Şurasının qərarı**

Şura Facebook şirkətinin məzmunun silinməsi ilə bağlı qərarını dəstəkləyir.

Özünün siyasətlə bağlı məsləhət xarakterli bəyanatında Nəzarət Şurası Facebook şirkətinə aşağıdakı tövsiyəni qeyd edir:

- İstifadəçilərin onlara qarşı tətbiq olunmuş İcma Standartları, o cümlədən Facebook şirkətinin konkret hər hansı qaydasının tətbiqinin səbəbləri ilə bağlı hər zaman məlumatlandırılmasının təmin edilməsi. Bu halda, istifadəçiyə onun yerləşdirdiyi paylaşımın Facebook şirkətinin Nifrət Dili ilə bağlı İcma Standartını pozduğuna dair məlumat verilib, lakin paylaşımın milli mənsubiyyətlə bağlı təhqiramiz ifadə olması səbəbindən silindiyi bildirilməyib. Facebook şirkətinin verdiyi qərarda şəffaflığın olmaması belə bir yanlış fikrin formalaşmasına səbəb olub ki, şirkət sözügedən məzmunu istifadəçinin bəyan etdiyi fikirlə razı olmaması səbəbindən silib.

*İşin xülasələri işə dair ümumi məlumatı çatdırır və presedent kimi dəyərə malik deyil.

## İşlə Bağlı Verilmiş Tam Qərar

### 1. Qərarın xülasəsi

Nəzarət Şurası Facebook şirkətinin istifadəçinin guya Azərbaycanda kilsələrin dağıdılması ilə bağlı paylaşımının onun Nifrət Dili ilə bağlı İcma Standartını pozması səbəbindən bu paylaşımın silinməsi ilə bağlı verdiyi qərarını dəstəkləyib.

Şura tərəfindən aparılmış müstəqil təhlil Facebook şirkətinin özündə azərbaycanlıların milli mənsubiyyətini təhqir edən təhqiramiz ifadənin olduğu paylaşımın qiymətləndirməsini təsdiqləyir. Paylaşımda siyası xarakterli çıxışın olmasına baxmayaraq, Facebook şirkətinə, xüsusilə də Azərbaycan ilə Ermənistan arasındakı mövcud münaqişə fonunda bu paylaşımı silməklə istifadəçilərin təhlükəsizliyi və onların şərəf və ləyaqətini qorumasına icazə verilib.

Bu paylaşımın çıxarılması həmçinin beynəlxalq insan hüquqları standartlarına da uyğundur ki, bu standartlar başqalarının hüquqlarını qorumaq məqsədilə ifadə azadlığı hüququnun məhdudlaşdırılması məqsədilə müəyyən fərdi məhdudiyyətlərin qoyulmasına imkan verir.

Nəzarət Şurası həmçinin Facebook şirkətinə tövsiyə edir ki, məsələyə daha çox aydınlıq gətirilməsi və istifadəçilərin məlumatlandırılması məqsədilə bu paylaşımın hansı səbəbdən silinməsinə dair daha təfsilatlı məlumat versin.

## 2. Hadisənin təsviri

2020-ci ilin noyabr ayında istifadəçilərdən biri özünün Facebook hesabında Azərbaycanın Bakı şəhərindəki kilsələri təsvir edən tarixi fotoşəkillərin olduğu bir məzmun yerləşdirib. Məzmunla birgə rus dilində yerləşdirilmiş mətndə iddia olunurdu ki, Bakı şəhərini ermənilər salmış və bu mədəni irs, o cümlədən kilsələr dağıdılmışdır. İstifadəçi mətndə azərbaycanlılarla bağlı "тазики" ("taziklər") sözündən istifadə etmiş və iddia etmişdir ki, onlar köçərilərdir və azərbaycanlılarla müqayisədə heç bir tarixə sahib deyillər. Paylaşımda istifadə edilmiş və rus dilində "ləyən" mənasını verən "tazik" sözü azərbaycanlılarla bağlı alçaldıcı bir ifadə kimi istifadə edilmişdir.

İstifadəçi qeyd olunan bu paylaşıma heştəqlər yerləşdirmiş və azərbaycanlıların təcavüzü və vandalizminə son qoymağa çağırmışdır. Digər heştəqdə isə Arsaxın (ermənilər tərəfindən Dağlıq Qarabağa verilmiş ad) tanınması ilə bağlı çağırış edib ki, bu da Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin təməlində duran bir məsələdir. Bu paylaşıma 45 000-dən çox baxış olmuş və iki dövlət arasındakı münaqişə zamanı Facebookda yerləşdirilmişdir.

Facebook şirkəti onun Nifrət Dili ilə bağlı İcma Standartını pozan bu paylaşımı silib. İstifadəçi məsələyə baxılmaq üçün Nəzarət Şurasına sorğu ilə müraciət edib.

## 3. Səlahiyyət və öhdəliklər

Şura, özünün Nizamnaməsinin Nəzarət Şurası özünün Nizamnaməsinin 2-ci Maddəsinə əsasən (Yoxlama Səlahiyyəti) Facebook şirkətinin qərarlarını yoxlamaq səlahiyyətinə malikdir və Nizamnamənin 3-cü Maddəsinin 5-ci Bölməsinə (Yoxlama qaydaları: Qətnamə) əsasən verilmiş qərarı saxlaya və ya onu ləğv edə bilər. Facebook şirkəti nə Nəzarət Şurasının Nizamnaməsinin 2-ci Maddəsinin 1.2.1-ci Bölməsinə (Şura tərəfindən baxılmaq üçün məzmun təqdim edilməyib) uyğun olaraq məzmunun çıxarılmasına dair səbəbləri təqdim etmiş, nə də baxılan işin Nizamnamənin 2-ci Maddəsinin 1.2.2-ci Bölməsinə (Hüquqi öhdəliklər) əsasən uyğun hesab edilmədiyini bildirib.

## 4. Müvafiq standartlar

Nəzarət Şurası özünün verdiyi qərarda aşağıdakı standartları nəzərə almışdır:

I. *Facebook-un İcma Standartları:*

Facebook şirkətinin Nifrət Dili ilə bağlı İcma Standartında bu kimi hadisə "bizim mühafizə olunan səciyyəvi xüsusiyyətlər adlandırdığımız – irq, etnik mənsubiyyət, milli

mənsubiyyət, dini bağlılıq, cinsi orientasiya, kasta, cins, gender, gender mənsubiyyəti və ciddi xəstəlik və ya fiziki qüsur kimi xüsusiyyətlər əsasında insanlara birbaşa hücum" kimi qiymətləndirilir. Qadağan edilmiş məzmuna "insanları xarakterizə edən və ya onları mənfur niyyətlərlə hədəfə alan, çox vaxt həqarətli böhtan kimi istifadə olunan təhqiramiz ifadənin olduğu məzmun daxildir."

Facebook şirkətinin siyasətinin əsaslandırması ondan ibarətdir ki, belə bir nitq "təhdidedici və təcridedici bir mühit formalaşdırması və bəzi hallarda real zorakılığı təşviq etməsi" səbəbindən yolverilməzdir.

II. *Facebook-un dəyərləri:*

Facebook şirkətinin bu hadisə ilə bağlı müvafiq dəyərləri İcma Standartlarının giriş hissəsində icmal şəkildə qeyd edilmişdir. Birinci dəyər "Söz azadlığı"dir ki, bu dəyər "ən ali" dəyər kimi təsvir edilmişdir:

> *İcma Standartlarımızın məqsədi hər zaman özünü ifadə üçün uyğun bir platformanın formalaşdırılması və insanlara öz fikirlərini bəyan etmək imkanının yaradılması olmuşdur. [...] Biz istəyirik ki, hətta bəziləri razılaşmadıqda və ya etiraz etdikdə belə, insanlar onlar üçün önəm kəsb edən məsələlərlə bağlı açıq danışa bilsinlər.*

Facebook bu "Söz azadlığı" dəyərindən istifadəni digər dörd dəyərə görə məhdudlaşdırır. Şura hesab edir ki, bu dəyərlərdən ikisi verilmiş qərara uyğundur:

> *Təhlükəsizlik: Biz Facebook-un təhlükəsiz bir platforma olması üçün üzərimizə öhdəlik götürmüşük. İnsanları təhdid edən ifadələr başqalarını qorxutmaq, onları təcrid etmək və ya susdurmaq potensialına malik olduğundan, buna Facebook şirkəti tərəfindən icazə verilmir.*
>
> *Ləyaqət*: *Biz inanırıq ki, bütün insanlar ləyaqət və hüquqlar baxımından bərabərdir. Biz insanlardan başqalarının ləyaqətinə hörmət göstərəcəyini və onları incitməyəcəyini və alçaltmayacağını gözləyirik.*

III. *Nəzarət Şurasının nəzərə aldığı İnsan Hüquqları ilə bağlı Müvafiq Standartlar:*

BMT-nin İnsan Hüquqları Şurası tərəfindən 2011-ci ildə təsdiqlənmiş Biznes və İnsan Hüquqları sahəsində Rəhbər Prinsipləri (BMTRP-lər), özəl müəssisələrin insan hüquqları ilə bağlı məsuliyyələtlərinə dair könüllü çərçivəni müəyyən edir. BMT-nin Biznes və İnsan Hüquqları sahəsində Rəhbər Prinsiplərinin icrasının monitorinqini həyata keçirən

İnsan Hüquqları və Transmilli Korporasiyalar üzrə İşçi Qrupu bu prinsiplərin münaqişə vəziyyətlərində tətbiqi məsələsinə toxunmuşdur (A/75/212, 2020). BMTRP-lərə əsaslanaraq, aşağıdakı beynəlxalq insan hüquqları standartları bu işdə nəzərə alınıb:

- İfadə azadlığı hüququ: Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt (ICCPR), Maddə 19 və 20; İnsan Hüquqları Komitəsinin 34 saylı Ümumi Şərhində (2011) (Ümumi Şərh 34) verildiyi kimi; BMT-nin fikir və ifadə azadlığı üzrə Xüsusi Məruzəçisinin hesabatları: A/69/335 (2014); A/HRC/38/35 (2018); A/73/348 (2018), A/74/486 (2019) və A/HRC/44/49 (2020); və Rabat Fəaliyyət Planı, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı (2012);
- Ayrıseçkilik əleyhinə hüquq: MSHBP Maddə 2 və 26; İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (ICERD), Maddə 1, 4 və 5; İrqi ayrıseçkiliyin ləğv edilməsi üzrə Komitə tərəfindən 2013-cü ildə verilmiş 35 saylı Ümumi Tövsiyə (GR35) əsasında şərh edilib;
- Yaşamaq hüququ: MSHBP Maddə 6; İnsan Hüquqları üzrə Komitə tərəfindən 2018-ci ildə verilmiş 36 saylı Ümumi Şərh əsasında şərh edilib (GC36);
- Şəxsi toxunulmazlıq hüququ: MSHBP Maddə 9, paraqraf 1; İnsan Hüquqlar üzrə Komitənin 2014-cü ildə verdiyi 35 saylı Ümumi Şərh, paraqraf 9 əsasında şərh edilib.

## 5. İstifadəçinin açıqlaması

Şuraya açıqlamasında istifadəçi öz paylaşımının nifrət dili olmadığını, sadəcə Bakının mədəni və dini irsinin dağıdılmasını göstərmək məqsədi güddüyünü iddia edib. Onlar həmçinin bildiriblər ki, yazı sırf "Ermənistan və ermənilərə qarşı nifrəti" olan azərbaycanlı istifadəçilərin ermənilərin paylaşımlarını şikayət etdikləri üçün silinib.

## 6. Facebook-un qərarının izahı

Facebook Nifrət Dili ilə bağlı İcma Standartını pozduğuna görə paylaşımı silib, paylaşımda mühafizə olunan səciyyəvi xüsusiyyət (etnik mənsubiyyət) əsasında şəxsi və ya insan qrupunu təsvir etmək üçün təhqiramiz ifadədən istifadə edilib. Facebook paylaşımda azərbaycanlıları təsvir etmək üçün "тазики" ("taziklər") sözündən istifadə edildiyi üçün onu sildiyini açıqlayıb. Bu söz rus dilindən hərfi tərcümədə "ləyən" kimi tərcümə oluna bilər, eyni zamanda, rus sözü olan "азики"-nin ("aziklər") azacıq dəyişdirilməsi kimi də başa düşünülə bilər - Facebook Şuraya izah edib ki, bu söz təhqiramiz ifadələrlə bağlı daxili siyahıdadır, sözügedən siyahı regional mütəxəssislər və vətəndaş cəmiyyəti təşkilatları ilə məsləhətləşmədən sonra toplanılıb. Bütün paylaşımı, eləcə də onun edildiyi konteksti qiymətləndirəndən sonra, Facebook

istifadəçinin təhqiramiz ifadəni azərbaycanlıları təhqir etmək üçün istifadə etdiyini müəyyən edib.

## 7. Üçüncü tərəfin təqdimatları

Nəzarət Şurası bu iş ilə bağlı 35 ictimai şərhi nəzərə alıb. Təqdim olunmuş şərhlərin ikisi Mərkəzi və Cənubi Asiyadan, altısı Avropadan, 24-ü isə ABŞ və Kanada regionundan idi.

Təqdimatlar aşağıdakı mövzuları əhatə edib: İcma Standartlarını pozan təhqiramiz ifadə və aşağılayıcı üslubdan istifadə; paylaşımın iddialarının faktiki dəqiqliyi; paylaşımın düzgün siyasi və ya tarixi müzakirə ehtiva edib-etməməsi; və Dağlıq Qarabağda münaqişə daxil olmaqla, ümumi vəziyyət və kontekstin qiymətləndirilməsinin vacibliyi.

## 8. Nəzarət Şurasının Təhlili

### 8.1 İcma Standartları ilə Uyğunluq

İstifadəçinin paylaşımı Nifrət Dili ilə bağlı Facebook-un İcma Standartını pozub. Bu İcma Standartı etnik və ya milli mənsubiyyət əsasında təhqiramiz ifadələrdən istifadəni aşkar şəkildə qadağan edir. Şuranın baş vurduğu müstəqil linqvistik təhlil də Facebook-un bu termini təhqiramiz ifadə kimi başa düşdüyünü təsdiqləyir. Bizim linqvistik hesabatımızda da “тазики,” və ya “ləyən” ilə “азики,” azərbaycanlıları alçaldıcı tərzdə təsvir etmək üçün istifadə olunan termin arasında bağlantı olduğunu qeyd edib.

Elə hallar ola bilər ki, bir kontekstdə alçaldıcı olan sözlər başqa bir kontekstdə daha yumşaq və ya hətta dəstəkləyici ola bilər. Facebook-un Nifrət Dili ilə bağlı İcma Standartı qəbul edir ki, bəzi hallarda "[onun] standartlarını poza biləcək sözlər və terminlər özünü bildirmək üçün və ya dəstəkləyici şəkildə istifadə olunur". Amma bu paylaşımda “тазики” sözünün istifadə olunduğu kontekstdə azərbaycanlıları ləyən ilə əlaqələndirməklə hədəfi gözdən salmaq məqsədi güdüldüyü aşkar görünür.

### 8.2 Facebook Dəyərlərinə Uyğunluq

Şura hesab edir ki, silmə Facebook-un "Təhlükəsizlik" və "Ləyaqət" dəyərlərinə uyğundur və sözügedən dəyərlər "söz azadlığı" dəyərini sıxışdırıb çıxarır.

Platformanın istifadəçilərinin öz fikirlərini azad şəkildə ifadə edə bilmələrini təmin etmək üçün Facebook-un dəyərləri arasında "söz azadlığı" prioritet hesab edilir.  Facebook-un dəyərlərinə həmçinin "Təhlükəsizlik" və "Ləyaqət" də daxildir. Digər

hallarda müdafiə olunan üslub, bu məzmundan kənara çıxdığı təqdirdə məhdudlaşdırıla bilər və onun kimi digər paylaşımlar Facebook-u daha təhlükəli edir və müvafiq insanların şərəf və bərabərliyinə xələl gətirir. Facebook-un milli mənsubiyyəti hədəf alan təhqiramiz ifadələrdən istifadəni qadağan etməsi istifadəçilərin digərlərini susdurmaq, kənarlaşdırmaq, narahat etmək və aşağılamaq məqsədi güdən məzmunu paylaşmalarının qarşısını almaq məqsədi daşıyır. Əgər lazımi tədbir görülməzsə, belə məzmunların artması, ayrı-seçkilik və zorakılıq hallarının daha çox ola biləcəyi bir mühitin yaranmasına səbəb ola bilər.

Belə olan halda, Facebook-a təhqiramiz ifadəni "Təhlükəsizlik" və "Ləyaqət" dəyərlərinə ciddi müdaxilə kimi dəyərləndirməyə icazə verilir. Qafqazın cənub şərqində qonşu olan Ermənistan ilə Azərbaycan arasında münaqişə uzun keçmişə malikdir. Yaxın keçmişdə, 2020-ci ilin sentyabr ayından noyabr ayına qədər Dağlıq Qarabağın mübahisəli ərazisi uğrunda döyüşlər bir neçə min insanın ölümü ilə nəticələndi. Facebook-dakı həmin məzmun atəşkəs qüvvəyə minəndən bir az əvvəl yerləşdirilmişdi. Bu məzmunun xüsusilə Şuraya aidiyyəti var idi. Qeyd olunan dil üslubu xüsusilə münaqişə vəziyyətlərində şəxslərarası ünsiyyətin bir hissə ola bilsə də, alçaldıcı və təhqiramiz ifadələrin artaraq zorakılıq əməllərinə çevrilmə təhlükəsini Facebook ciddi şəkildə nəzərə almalıdır.

### 8.3 İnsan Hüquqları ilə bağlı Müvafiq Standartlar

I. *İfadə Azadlığı (MSHBP-ın 19-cu maddəsi)*

Facebook, BMT-nin Biznes və İnsan Hüquqları sahəsində Rəhbər Prinsipləri çərçivəsində insan haqlarını tanıyıb və silahlı münaqişə vəziyyətləri daxil olmaqla, məzmun ilə bağlı qərarlar qəbul edərkən, MSHBP və Rabat Fəaliyyət Planı kimi hüquqi sənədlərə istinad etdiyini qeyd edib.

Şura, BMT Xüsusi Məruzəçisinin ifadə azadlığı ilə bağlı dediyi "şirkətlərin Hökumətlər kimi öhdəlikləri olmasa da, onların təsiri səbəbilə, öz istifadəçilərinin ifadə azadlığını qorumaqla bağlı eyni növ sualları qiymətləndirmələri tələb olunur" (A/74/486, paraq. 41). Bu sualların mahiyyətinə aydınlıq gətirmək və Facebook-un cavablarının BMT-nin Rəhbər Prinsiplərinin tələb etdiyi çərçivədə olub-olmaması barədə qərar çıxarmaq Şuranın qarşısında duran əsas vəzifədir.

Şuranın ilkin mövqeyi odur ki, ifadə azadlığı hüququnun əhatə dairəsi genişdir. Əlbəttə, MSHBP-nın 19-cu maddəsinin, 2-ci paraqrafına əsasən dini məkanlara və xalqların mədəni irsinə aid olanlar daxil olmaqla, siyasi məsələlər, tarixi iddialarla bağlı müzakirələr daha çox müdafiə ilə təmin olunur. Hətta elə iddialar qeyri-

dəqiq və ya mübahisəli olduğu və hətta incitməyə səbəb ola biləcəyi təqdirdə də o müdafiə öz qüvvəsində qalır. MSHBP-nın 19-cu maddəsinin, 3-cü paraqrafında qanunilik, qanunauyğunluq, zərurət və mütənasibliyin üç hissədən ibarət sınağına cavab vermək üçün ifadə azadlığına məhdudiyyətlər qoyulması tələb olunur.

Şura üzvlərinin böyük əksəriyyəti Facebook-un bu paylaşımı silməsinin bu sınağın tələblərinə cavab verdiyi qənaətindədirlər.

a. Qanunilik

“Qanunilik” tələbini təmin etmək üçün ifadə məhdudiyyətini müəyyən edən hər hansı bir qayda aydın və əlçatan olmalıdır. İnsanlar nitqlərinin hansı hallarda və necə məhdudlaşdırıla biləcəyi haqqında kifayət qədər məlumata sahib olmalıdırlar ki, öz davranışlarını uyğun şəkildə tənzimləyə bilsinlər. Bu tələb əsassız senzuradan qoruyur. (Ümumi Şərh № 34, paraqraf 25).

Facebook-un Nifrət Dili haqqında İcma Standartı “təhqiramiz ifadə”ni qadağan edir və bu ifadələr bir sıra “qorunan xüsusiyyətlər”, o cümlədən etnik və milli mənsubiyyət ilə əlaqədar “mahiyyət etibarilə təhqiredici və həqarətli böhtan kimi istifadə edilən sözlər” hesab olunur.

Bu halda Nəzarət Şurası qanunilik tələbini yerinə yetirilmiş hesab etmişdir. Elə vəziyyətlər ola bilər ki, təhqiramiz ifadənin bir neçə mənası olar və ya həmin ifadə elə formada istifadə edilər ki, “hücum” sayılmaz. Daha mübahisəli vəziyyətlərdə “mahiyyət etibarilə təhqiredici” və “həqarətli” anlayışlar çox subyektiv hesab edilə və qanunilik nöqteyi-nəzərdən narahatlıq törədə bilər (A/74/486, paraqraf 46). Bu halda isə həmin qaydanın tətbiqi eyni narahatlığı törətmir. İstifadəçinin söz seçimi İdarə Heyətinin açıq şəkildə ifadə etdiyi və istifadəçilər üçün asanlıqla əlçatan olan şərəf və ləyaqəti alçaldan nitq qadağası çərçivəsinə tam şəkildə düşür. Milli mənsubiyyəti cansız natəmiz əşya ilə əlaqələndirən “т.а.з.и.к.и” sözünün istifadəsi açıq şəkildə “həqarətli böhtan” kimi qiymətləndirilir.

İstifadəçinin qaydalar haqqında subyektiv anlayışı qanunilik üçün müəyyənedici xarakter daşımasa da, İdarə Heyəti qeyd edir ki, istifadəçi bir həmin alçaldıcı ifadəni hər bir hərf arasında durğu işarəsindən istifadə etməklə Facebook-un avtomatik aşkarlama alətindən gizlətməyə cəhd edib. Bu, bir qayda olaraq onu təsdiqləyir ki, istifadəçi Facebook tərəfindən qadağan olunan dildən istifadə etdiyini bilirdi.

b. Qanunauyğunluq

İfadə azadlığının hər hansı şəkildə məhdudlaşdırılması həm də “qanunauyğun məqsədə” malik olmalıdır. Bu məqsədlər MSHBP-da sadalanmışdır və buraya “digərlərinin hüquqlarını” qorumaq məqsədi də daxildir (Ümumi Şərh №34, paraqraf 28). Facebook-un təhqiramiz ifadələrə dair qadağası insanların bərabərlik və qeyri ayrı-seçkilik hüquqlarının (Maddə 2, paraqraf 1, MSHBP) qorunmasını, təngə gətirilmədən və təhdid olunmadan sözü gedən platformada ifadə azadlıqlarını istifadə etmək hüquqlarının lərini (Maddə 19, MSHBP), insanın təhlükəsizliyi hüququnun mümkün və qəsdən yetirilmiş xəsarətdən (Maddə 9, MSHBP) və hətta yaşama hüququnun (Maddə 6, MSHBP, Ümumi Şərh No 35, paraqraf 9) qorunması məqsədini daşıyır.

c. Zərurət və Mütənasiblik

Zərurət və mütənasiblik tələb edir ki, ifadə azadlığını məhdudlaşdırmasının mövcud təhdidin (bu halda digərlərinin hüquqlarına olan təhdid) aradan qaldırılması üçün zəruri olduğunu və bu tədbirin həddindən artıq geniş olmadığını Facebook nümayiş etdirsin. (Ümumi Şərh №34, paraqraf 34) Nəzarət Şurası qeyd edir ki, insan hüquqlarına dair beynəlxalq qanun irq, dəri rəngi, mənşə, milli və ya etnik mənsubiyyət zəminində “insanlar və ya qrupların təhqir edilməsi, ələ salınması, iftiraya məruz qalması və ya nifrət, ikrah və ya ayrı-seçkiliyə bəraət qazandırılması” haqqında qadağalara icazə verir” (A/74/486, paraqraf 17; GR 35, paraq. 13).

Facebook-un Nifrət Dili haqqında İcma Standartı bəzi ayrı-seçkilik bildirən, o cümlədən təhqiramiz ifadələri qadağan edir və bunun üçün həmin ifadənin şiddət və ya ayrı-seçkiliyə təhrik etməsi şərt deyil. Bu cür qadağalar Hökumət tərəfindən daha geniş səviyyədə, xüsusilə də cinayət və ya mülki cəzalar vasitəsilə tətbiq edildikdə (A/74/486, para. 48), narahatçılığa səbəb olsa da, Xüsusi Məruzəçi bildirir ki, Facebook kimi məzmun moderasiyası ilə məşğul olan şirkətlər bu cür nitqi tənzimləyə bilərlər:

> *Nifrət dolu ifadələrlə mübarizə öz miqyası və mürəkkəbliyi baxımından uzunmüddətli çətinliklər yaradır və mənfi nəticələrlə bariz şəkildə əlaqəli olmasa belə şirkətlərin bu cür ifadələri məhdudlaşdırmasına səbəb ola bilər (ədavət təbliğatı MSHBP-in 20-ci maddəsinin 2-ci hissəsində təhriklə əlaqəli olduğu üçün). Bununla belə, şirkətlər bu cür məhdudiyyətlərin əsaslarını açıqlamalı və hər hansı bir məzmun fəaliyyətinin zəruriliyini və mütənasibliyini nümayiş etdirməlidir.* (A/HRC/38/35, para. 28)

Nəzarət Şurasının əksər üzvləri bu halda istifadə edilmiş təhqiramiz ifadənin nifrətlə dolu olduğunu, eləcə də şərəf və ləyaqəti alçaltdığını hesab etmişdir. Bu ifadə təhrikedici xarakter daşımasa da, mənfi nəticələrə yol açma potensialı mövcud idi. Kontekst mühüm xarakter daşıyır. Nəzarət Şurası Facebook-un yalnız bu kontekst

istifadəsindən xəbərdar olan yerli ekspertlər və vətəndaş cəmiyyəti təşkilatları ilə məsləhətləşmələrdən sonra bu sözü təhqiramiz ifadə kimi müəyyən etməsi barəsindəki izahatını alqışlayır. Əksəriyyət qeyd etmişdir ki, paylaşımı bütövlükdə oxuduqda aydın olurdu ki, istifadəçinin təhqiramiz ifadə seçimi təsadüfi deyil, hədəf qrupun aşağı səviyyəni təmsil etməsi arqumentində məhz mərkəzi xarakter daşıyırdı. Bundan başqa, sözü gedən paylaşım onu yazan istifadəçinin Ölkəsi ilə paylaşımda hücum olunan vətəndaşların Ölkəsi arasındakı silahlı münaqişənin ən qızğın vaxtında geniş şəkildə yayılmışdır. Bu kontekstdə şərəf və ləyaqəti alçaldan dilin istifadəsi müəyyən onlayn təsirlərə, o cümlədən digərlərinin özlərini ifadə etmə azadlığına əngəl törədən ayrı-seçkilik təşviq edən mühitin yaranmasına gətirib çıxara bilərdi. . Xüsusilə də, silahlı münaqişələr zamanı hər hansı bir platformada bu cür nifrət dolu, insan ləyaqətini alçaldıcı ifadələrin toplanması və yayılmasının insanların təhlükəsizlik və potensial olaraq yaşama hüquqlarına təsir göstərə biləcək oflayn hərəkətlərə gətirib çıxarma riski nəzərə çarpmaqdadır. Bu konkret hadisədə Nəzarət Şurasının əksəriyyəti üçün bu risklərin mövcudluğu və Facebook-un bu risklərə töhfə verməmək üçün insan hüquqları sahəsində sahib olduğu öhdəliklər o demək idi ki, Facebook-un sözü gedən təhqiramiz ifadəni silmək hüququ var idi.

Bundan başqa, Nəzarət şurası həmin silinmənin mütənasib olduğunu da təsdiqlədi. Daha yumşaq müdaxilələr, məsələn, etiketlər, xəbərdarlıq ekranları və ya yayılmanın qarşısını almaq üçün digər tədbirlər eyni cür qorumanı təmin etməyəcək idi. Qeyd etmək lazımdır ki, Facebook öz arsenalında olan digər sərt tədbirlərdən də, məsələn istifadəçinin hesabının dayandırılmasından istifadə etməmişdir, halbuki, istifadəçi həmin təhqiredici məzmunu bir neçə dəfə təkrar paylaşmışdır. Bu onu nümayiş etdirir ki, sözü gedən konkret məzmunun silinməsinə baxmayaraq, istifadəçi İcma Standartları çərçivəsində eyni məsələlər ətrafında müzakirələrdə sərbəst şəkildə iştirakını davam etdirə bilərdi.

Az sayda şura üzvləri Facebook-un paylaşımı silməsinin qeyri-mütənasib olduğunu hesab etmiş və onu əsas gətirmişlər ki, şura üzvlərinin əksəriyyətin istinad etdiyi risklər həddindən artıq kiçik və öncədən nəzərə alınması qeyri-mümkün idi. Alternativ, az müdaxiləedici, məcburedici tədbirləri nəzərdən keçirilməli idi. Belə nümunələrə məzmun üzərinə xəbərdarlıq və ya həssaslıq ekranın əlavə edilməsi, yayılmasının azaldılması, əks-ismarıçların tətbiqi və ya digər üsullar daxildir. Az sayda şura üzvlərinin nəzər-nöqteyinə görə, təhqiramiz ifadə ucbatından bütöv bir paylaşımın silinməsi cəmiyyət üçün maraqlı bir mövzuda fikrin silinməsinə səbəb olmuş və bu məhdudiyyətin mütənasibliyi təyin olunmamışdır.

Az sayda şura üzvlərinin başqa bir nöqteyi-nəzər belə idi ki, cansız əşyaya istinad incidici olsa da, insan ləyaqətini alçaldıcı deyildi. Bu nöqteyi-nəzərdə təhqiramiz ifadənin hərbi və ya hər hansı digər zorakı əmələ töhfə verə bilməyəcəyi nəzərə alınmışdı.

## 9. Nəzarət Şurasının Qərarı

### 9.1 Məzmunla bağlı qərar

Nəzarət Şurası Facebook-un istifadəçinin paylaşımını silmək barəsindəki qərarını dəstəkləyir.

### 9.2 Konsultativ Proqram Bəyanatı

Şura tövsiyə edir ki, Facebook:

- İstifadəçilərin onlara qarşı İcma Standartlarının, o cümlədən Facebook-un istinad etdiyi konkret qaydanın məcburi tətbiq edilmə səbəbi haqqında daim məlumatlandırılmasını təmin etsin. Bu cür etməklə Facebook öz istifadəçilərinə qarşı düşmən mövqeyi tutmaqdansa, İcma Standartlarına uyğun gələn ifadə tərzini təşviq etmiş olacaq. Konkret olaraq bu halda, istifadəçi onun paylaşımının Nifrət Dili haqqında İcma Standartının tələblərini pozması haqqında məlumatlandırılmış, lakin məhz həmin paylaşımın tərkibində milli mənsubiyyəti hədəf alan təhqiramiz ifadənin mövcudluğu səbəbindən bu standartı pozması haqqında ona deyilməmişdir. Bu halda Facebook qanunilik prinsipinin tələblərini yerinə yetirmiş, lakin şəffaflığın olmaması Facebook-un həmin paylaşımı istifadəçinin ziddiyyətli mövzuda fikir bildirməsi və ya Facebook-un razılaşmadığı nöqteyi-nəzər olduğuna görə silməsinə dair yanlış düşüncənin formalaşmasına əsas vermişdir.

***Prosedurla bağlı qeyd:**

Nəzarət Şurasının Qərarları beş Üzvdən ibarət komanda tərəfindən hazırlanır və səs çoxluğu ilə razılaşdırılmalıdır. Şuranın verdiyi qərarlar bütün Üzvlərinin şəxsi fikirləri ilə üst-üstə düşməyə bilər.

Bu hal haqqında qərarın verilməsi məqsədilə Nəzarət Şurası adından müstəqil araşdırma təşkil edilmişdir. Altı qitəni təmsil edən 50-dən çox sosioloq və eləcə də bütün dünyanı əhatə edən 3200-dən çox ölkə ekspertindən ibarət komandanın cəlb edildiyi və baş qərargahı Göteburq Universitetində yerləşən müstəqil tədqiqat institutu sosial-siyasi və mədəni kontekst sahəsində xüsusi bilik və təcrübə təqdim ediblər. Mütəxəssislərinin 350-dən çox dildə sərbəst şəkildə danışdığı və dünyanın 5000

şəhərindən çalışdığı Lionbridge Technologies Korporasiyası linqvistik dəstəyi təmin etmişdir.